

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 103 (23.014)

1 iyun 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Mayın 31-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 31-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin müavini xanım Bricet Brinki qəbul edib.

* * *

Prezident İlham Əliyev mayın 31-də Avropa Komissiyasının büdcə məsələləri və insan resursları üzrə komissarı Günter Ottingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 31 may tarixli Sərəncamı ilə Azərbaycan mülki aviasiyasının 80 illiyi ilə əlaqədar olaraq, aviasiya sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif olunanlar arasında Naxçıvan Beynəlxalq Hava Limanının əməkdaşı da vardır.

**Abdullayev Nadir Əbülfəz oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişdir.

## Dövlət Miqrasiya Xidmətinin yaradılmasının ildönümü qeyd edilib

*Mayın 31-də Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılmasının 8 illiyi münasibətilə tədbir keçirilib.*

Tədbiri xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev açaraq deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 31 may tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Miqrasiya Xidməti yaradılıb. Ötən müddət ərzində Dövlət Miqrasiya Xidmətində qarşıya qoyulan vəzifələrin həyata keçirilməsi üçün güclü maddi-texniki baza və kadr potensialı formalaşdırılıb. Vahid miqrasiya məlumat sisteminin qurulması isə bu proseslərin muxtar respublikada tənzimlənməsi üçün mühüm əhəmiyyət kəsb edib. Hazırda muxtar respublikada sərhəd-buraxılış məntəqələrində, eyni zamanda Naxçıvan və Culfa sərnişin vağzalı binalarında miqrasiya xidmətlərinin fəaliyyəti yüksək səviyyədə təşkil olunur. Əcnəbilərin bütün hüquqları Dövlət Miqrasiya Xidməti tərəfindən təmin edilir. Dövlət Miqrasiya Xidmətinin fəaliyyətinin əsasını Vətənə sədaqət, hər bir insana qayğı, ən başlıcası isə qanunların aliliyinə və milli-mənəvi dəyərlərə hörmət təşkil edir.

Qeyd olunub ki, ötən 8 ildə muxtar respublikaya gələn əcnəbilərin olduğu yer üzrə qeydiyyata alınması, müvəqqəti olma müddətlərinin uzadılması, müvəqqəti və daimi yaşamaq üçün icazələrin verilməsi, vətəndaşlıq məsələləri, eləcə də əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin verilməsi və mövcud iş icazələrinin müddətlərinin uzadılması ilə bağlı daxil olmuş müraciətlərin hər biri ayrı-ayrılıqda qanunvericiliyin tələblərinə uyğun olaraq araşdırılıb və müvafiq qərarlar qəbul olunub. Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin yeni inzibati binasının və Miqrantların Saxlanılması Mərkəzinin istifadəyə verilməsi xidmətin səviyyəsini daha da yüksəldib.





Tədbirdə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov çıxış edərək deyib ki, bu gün Naxçıvan Muxtar Respublikası miqrantlar üçün yaşamaq və işləməyin əlverişli olduğu bir məkana çevrilib. Muxtar respublikada bütün sahələrin inkişafına göstərilən dövlət qayğısından miqrasiya orqanlarına da xeyli pay düşüb. Görülən işlərin nəticəsidir ki, muxtar respublikada miqrasiya prosesləri qanunun tələblərinə uyğun həyata keçirilir. Yaradılan şəraitdən səmərəli istifadə etməyə çalışan miqrasiya əməkdaşları qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə səy göstərirlər. Bu isə onların öz vətəndaşlıq və vəzifə borclarına məsuliyyətlə yanaşmalarının ifadəsidir. Vüsal Hüseynov yaradılmasının 8 illiyi münasibətilə miqrasiya əməkdaşlarını təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonra xidməti fəaliyyətində fərqlənən bir qrup əməkdaşa Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin 10 illiyi yubiley medalı, Miqrasiya orqanlarında qüsursuz qulluğa görə üçüncü dərəcəli Azərbaycan Respublikası medalı, növbəti və növbədənkənar xüsusi rütbə və qiymətli hədiyyələr təqdim olunub. Medalları və qiymətli hədiyyələri əməkdaşlara Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Rza Talıbov və Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev təqdim ediblər.

Tədbirin sonunda iştirakçılar Naxçıvan Televiziyasının istehsalı olan Dövlət Miqrasiya Xidmətinin fəaliyyətindən bəhs edən filmə baxıblar.

**"Şərq qapısı"**

## "Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəçiliyi və siyasi sistemi" mövzusunda elmi konfrans



*Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibliyi və Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə Naxçıvan Müəllimlər İnstitutunun akt zalında "Azərbaycan Xalq Cümhuriyyətinin dövlət idarəçiliyi və siyasi sistemi" mövzusunda elmi konfrans keçirib.*

Konfransı giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Anar İbrahimov qeyd edib ki, XX əsr xalqımız tərəfindən müstəqilliyimizin və milli dövlətçiliyimizin yenidən bərpa edilməsi ilə yadda qalıb. 1918-ci il mayın 28-də yaradılan müsəlman Şərqində ilk respublika – Azərbaycan Xalq Cümhuriyyəti keyfiyyətcə yeni bir siyasi fenomen, milli inkişafın və təşkilatlanmanın yeni səviyyəsinin göstəricisi kimi çıxış edib. Onun tarixi missiyasındakı ən mühüm məqamlardan biri respublikanın milli dövlətçiliyinin davamlılığının və bununla, siyasi, milli dövlət varisliyinin təmin edilməsi olmuşdur.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının Şura üzvü, "Naxçıvan" Universiteti İdarəetmə fakültəsinin dekanı, tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev "Azərbaycan Xalq Cümhuriyyətinin dövlət quruluşu: parlamentli respublika" mövzusunda məruzə edərək bildirib ki, cümhuriyyət parlamentinin qəbul etdiyi qanunlar milli dövlətçiliyin əsaslarının möhkəm hüquqi təməllər üzərində qurulması yönündə böyük əhəmiyyətə malik olub.

"Azərbaycan Xalq Cümhuriyyəti: ərazisi, sərhədləri və inzibati-ərazi bölgüsü" mövzusunda məruzə edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin direktoru Şahin Əliyarov qeyd edib ki, Azərbaycan Xalq Cümhuriyyəti öz ərazi bütövlüyünün təmin edilməsi istiqamətində ciddi mübarizə aparsa da, bir sıra obyektiv səbəblər üzündən müəyyən ərazi itkisinə məruz qalsa da, cümhuriyyət hökuməti Naxçıvan və Qarabağ ərazilərini öz nəzarətində saxlaya bilib.

Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli "Azərbaycan Xalq Cümhuriyyəti dövründə siyasi partiyalar" mövzusunda məruzəsində bildirib ki, XX əsrin əvvəlləri və cümhuriyyət dövrünün siyasi partiyaları həmin tarixi mərhələnin bütün cəhətlərini özündə ehtiva edib.

Konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qafqaz tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Emin Şıxəliyev "1918-1920-ci illərdə böyük güclərin Cənubi Qafqazla bağlı siyasətlərində Naxçıvan", Naxçıvan Müəllimlər İnstitutunun dosenti, tarix üzrə fəlsəfə doktoru Ələkbər Cabbarov "1917-1920-ci illərdə Naxçıvanda yerli idarəetmə orqanları", Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru Yeganə Məmmədova "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası: siyasi varislik və ənənələr" mövzularında məruzələr ediblər.

Konfransdakı çıxışlar müstəqil Azərbaycan dövlətçiliyinin inkişafını əks etdirən slaydlarla müşayiət olunub.

**Tural AĞAYEV**

## İstehsalat təcrübəsi keçən tələbələrlə görüş olub



Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi ixtisasının III kurs tələbələri aprel ayının 16-dan may ayının 31-dək Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində təcrübə keçiblər. Təcrübə müddətinin yekunu olaraq nazirlikdə tələbələrlə görüş olub.

Görüşdə Naxçıvan Muxtar Respublikası rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il iyulun 27-də imzaladığı "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən ali və orta ixtisas təhsili müəssisələrinin müvafiq ixtisasları Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib. Müvafiq ixtisaslarda təhsil alan tələbələrlə mütəmadi görüşlər keçirilir, onlara ixtisaslarına daha dərindən yiyələnmələri üçün köməklik göstərilir.

Qeyd olunub ki, məqsəd gələcəkdə informasiya-kommunikasiya texnologiyaları sahəsində çalışacaq kadrların daha peşəkar yetişməsi, onların seçdikləri ixtisasların sirlərinə dərindən yiyələnmələridir. Nazirlikdə istehsalat təcrübəsində fəal iştirak edən və təhsil müəssisələrində yaxşı nəticələr göstərən tələbələr təhsillərini başa vurduqdan sonra işlə təmin olunmaq üçün nazirliyə müraciət edə bilərlər.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı Cavanşir Zeynalov, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşları Hüsniyyə Rəcəbova, Cavid Mustafayev çıxış ediblər.

Tələbələrdən Fuad Babayev və Zeynəb Əlizadə yaradılmış şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin Ekologiya mühəndisliyi ixtisası üzrə III kurs tələbələri Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin istehsalat və xidmət müəssisələrində 15 gün müddətində istehsalat təcrübəsi keçiblər.

**Xəbərlər şöbəsi**

Yeniləşən kəndlərimiz

## Dövlət qayğısı ilə müasirləşən qədim yurd yerimiz

***Dağlar qoynuna sığınan Şahbuzun gözəl mənzərəli, təmiz havalı, saf çeşməli, sulu, axarlı-baxarlı, qonaqlı-qaralı kəndləri çoxdur. Onlardan biri də qədim yaşayış məskəni olan Şahbuzkənddir. Aparılan arxeoloji qazıntılar burada tarixi abidələrin, yaşayış yerlərinin olduğunu, ümumilikdə, kəndin qədimliyini təsdiqləyir.***




İllər öncə ümummilli lider Heydər Əliyev tərəfindən respublikamızda başlanan quruculuq siyasəti sonrakı illər böyük uğurla aparıldıqca, genişlənib ucqar dağ kəndlərini belə əhatə etdikcə, həmin vüsətdən Şahbuzkəndə də pay düşdü. Bu kəndi də quruculuq prosesi “ağuşuna” aldı. Rayonun digər kəndləri kimi, sovet dönəmində baxımsızlıq ucbatından bərbad vəziyyətə düşən Şahbuzkənddə başlanan quruculuq işləri yaşayış məntəqəsinin simasını tamamilə dəyişdi. Təmiz havası, yaraşıqlı mənzərəsi olan bu kənddə edilən hər bir yenilik təbii gözəlliklə harmoniya yaratdı. İnsan əllərinin yaşayış məntəqəsinə vurduğu zinət onunla nəticələndi ki, kənd öz əvvəlki görünüşündən çıxıb müasir bir qəsəbəni xatırlatdı. Bu gün yolu Şahbuzkəndə düşən hər kəs dediklərimizi təsdiqləyər.

2007-ci ildə dövlət qayğısı nəticəsində kənddə həkim ambulatoriyası istifadəyə verilib. Burada ilkin səhiyyə xidməti üçün lazımi şərait yaradılıb. Tibbi heyət üçün iş otaqlarından, iki çarpayılıq palatadan ibarət olan həkim ambulatoriyasının istifadəyə verilməsi onun göstəricisidir ki, dövlətimiz kəndlərimizdə insanların sağlamlığının qeydinə qalır, bunun üçün ucqarlarda belə səhiyyə ocaqları tikilir. Həkim ambulatoriyasının açılışı zamanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ambulatoriyanın yaxınlığında yerləşən Şahbuzkənd orta məktəbinin vəziyyəti ilə tanış olması, köhnə məktəbin ərazisində yeni məktəb binasının inşa edilməsi, kənd mərkəzinin tikilməsi, yolda təmir işlərinin aparılması barədə verdiyi tapşırıqlar bu kəndin hərtərəfli inkişafı üçün stimul oldu.

2008-ci ili kənd sakinləri möhtəşəm açılış mərasimləri, həyatlarına daxil olan yeniliklər ili kimi xatırlayırlar. Həmin il Şahbuz-Keçili yolunun yenidən qurularaq asfalt-beton salınmış 7 kilometri və rayonun Kiçikoba kəndinin girəcəyində, Naxçıvançay üzərindəki körpü əsaslı təmir işlərindən sonra istifadəyə verildi. O yol, o körpü ki, oradan dörd kəndə yol gedir. Dörd kəndin əhalisinin rahatlığı təmin olunur. Yol mədəniyyətdir, abad yurd yolundan bəlli olar, – deyiblər. Elə dörd kəndə – Kiçikobaya, Şahbuzkəndə, Külüs və Keçiliyə uzanan bu yol, bu körpü həmin kəndlərin abadlığından xəbər verir. Bu yolla haqqında danışdığım Şahbuzkəndə üz tutduqda isə adamın gözləri önündə gözəlliklər bir-birini əvəz edir.



Həmin il kənddə 216 şagird yerlik ikimərtəbəli məktəb binasının da istifadəyə verilməsi ilə böyük təhsil ənənələri olan Şahbuzkənd tam orta məktəbinin yeni binada fəaliyyətə başlaması dövlətimizin gələcəyimiz olan uşaqlara göstərdiyi diqqət və qayğının parlaq təcəssümü oldu. Dünyanın inkişaf etmiş ölkələrinin təhsil sisteminin tələbləri əsasında qurulan məktəbdə müasir standartlara cavab verən hərtərəfli şəraitin yaradılması müəllim və şagird kollektivinə, ümumilikdə isə kənd sakinlərinə böyük töhfə oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Şahbuzkənddə istifadəyə verilən sosial obyektlərin açılışı zamanı demişdir: ***“Şahbuzkənddə yaradılmış infrastruktur imkan verəcəkdir ki, kənd sakinləri öz asudə vaxtlarını problemlərinin həlli məqsədilə rayon mərkəzinə getmək əvəzinə, təsərrüfatlarına, ailələrinə, övladlarına sərf etsinlər. Kəndə göstərilən dövlət qayğısı yaşayış məntəqəsinin inkişafına, torpaqların tamamilə əkilməsinə, insanların yaşayış səviyyəsinin yüksəlməsinə, müəllimlərin dərsdənkənar vaxtlarda məktəbin şagirdləri ilə daha çox məşğul olmasına şərait yaradacaq”.***

Kənd və ticarət mərkəzləri kəndin xarici görkəminə yeni görünüş bəxş etməklə yanaşı, sakinlərin rahatlığına xidmət edir. Kənd mərkəzində icra nümayəndəliyinin, bələdiyyənin, latın qrafikası ilə çap olunmuş kitablarla zənginləşdirilmiş kitabxananın, Yeni Azərbaycan Partiyası ilk ərazi təşkilatının, polis sahə məntəqəsinin, baytar otağının, kənd klubunun fəaliyyət göstərməsi, sözün həqiqi mənasında, şahbuzkəndlilər tərəfindən sosial rifah hallarının yaxşılaşdırılmasına onların qarşılaşacağı çətinliyin vaxtında həllinə kömək edən yeni bir infrastruktur kimi qarşılandı. Bütün bunlar kənd sakinlərinə mədəni xidmətin səviyyəsini yüksəldib, kəndə yeni, müasir ab-hava gətirib. Tikilən hər bir obyektin ətrafının abadlaşdırılması, yaşıllıqların salınması, işıqlandırma sisteminin quraşdırılması, su xəttinin çəkilməsi isə yaradılan gözəlliyi əsrarəngiz şəkildə tamamlayıb. Elə bütün bunlara görə də şahbuzkəndlilər dövlətimizin siyasətini daim dəstəkləyir, ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Qurulanlar, yaradılanlar, təbii ki, bütün kəndlərimizdə olduğu kimi, Şahbuzkənddə yaşayanlara da doğma yurd yerlərini daha da sevdirir, onları torpağa qırılmaz tellərlə bağlayır. Əgər vaxtilə kəndli adi bir problemi üçün rayon mərkəzinə enib vaxtını itirirdisə, səhiyyə, baytar, rabitə, polis, digər mədəni xidmətlər üçün harasa üz tutmalı olurdusa, çətinliklərlə üzləşirdisə, bu gün hər hansı işini vaxt itirmədən, öz evinin içində həll edirsə, deməli, əvvəllər itirdiyi vaxtını torpağına, güzəranına sərf edir.

Torpaq islahatından sonra torpaq sahibi olan şahbuzkəndlilər onun bir qarışını belə, boş qoymur, əkir, biçir, məhsul sahibi olurlar. Əgər illər öncə kənd sakinləri tonlarla məhsulu satmağa yer tapmadıqlarından onu zay edir və yaxud satmaq üçün uzaq məsafələrə aparmalı olurdularsa, bu gün Şahbuz şəhərində fəaliyyət göstərən ticarət mərkəzinə üz tutur, keçirilən kənd təsərrüfatı məhsullarının satış-yarmarkalarında iştirak etməklə məhsullarını satır, öz ailə gəlirlərini artırır, tələbatlarını ödəyirlər. Bu kimi qayğıdan sonra kəndlinin nə problemi ola bilər?

Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Seyfulla Rüstəmovla söhbət zamanı o, kəndin 5227 hektar ümumi torpaq sahəsi olduğunu bildirdi. Onun 96 hektarı dövlət, 254 hektarı xüsusi mülkiyyətdə, 4872 hektarı isə kənd bələdiyyəsinin balansında olan torpaq sahələridir. Yaradılan hərtərəfli şərait kənd sakinlərinin əl-qolunu açıb, onların əkin sahələrini ildən-ilə genişləndirmələrinə səbəb olub. Şahbuzkəndlilər ötən il 157 hektar taxıl, 24,2 hektar kartof, 12,3 hektar paxlalı bitki, 7,7 hektar tərəvəz, 10,8 hektar çoxillik, 2,9 hektar birillik ot əkib, yüksək məhsuldarlıq əldə ediblər. Onlar cari ilin məhsulu üçün ötən payızda 158 hektar sahədə taxıl əkiblər. Yaz əkini isə 31 hektar sahədə həyata keçirilib. İcra nümayəndəsi dedi ki, kənd sakinləri bu il kartof, tərəvəz və digər əkinlərin daha da genişləndirilməsini qarşılarına məqsəd qoyublar.

Şahbuz rayonunda belə bir el adəti də var ki, erkən yazda kənd camaatı bir yerə toplanar, əkinlərini bol suvarma suyu ilə təmin etmək üçün el arxlarını təmizləyərlər. Şahbuzkənddə də bu iş hər il olduğu kimi, bu yaz da el birliyi ilə həyata keçirilib. Sakinlərin yaz-tarla işlərinə böyük fəallıqla başlamaları cari ildə məhsuldarlığın daha çox olmasından xəbər verir.

Kənd sakinləri 1062 iribuynuzlu, 5910 xırdabuynuzlu, 4458 quş saxlayırlar. Süd məhsulları – yağ, xama, pendir, qatıq, şor-kərə və yumurta istehsal edən kəndlilər bu məhsullarla öz ailələrini təmin etməklə yanaşı, həm də onları bazara çıxarmaqla, digər məhsullara olan ehtiyaclarını ödəyirlər.

Şahbuzkəndlilər arıçılıqdan da xeyli gəlir əldə edirlər. Kənddə şəxsi təsərrüfatlarda 819 arı ailəsi saxlanılır. Seyfulla Rüstəmov gəlirli sahə olan arıçılıqdan, kənddə bu sahəni inkişaf etdirən sakinlərdən də söhbət açdı. Ən yaxşı arıçı kimi Xəqani Həzrətquliyevin və Məzahir Məmmədovun adlarını çəkdi. Dedi ki, Xəqani 100, Məzahir isə 23 arı ailəsi saxlayır və yaxşı gəlir əldə edirlər.

*Bir sözlə, bu gün yeniləşən Şahbuzkəndə yolu düşən hər kəs kəndin dövlət qayğısı ilə əhatə olunduğunun, tikinti, quruculuq, abadlıq işlərinin buraya müasir həyat bəxş etdiyinin şahidi ola bilər. Bu yeni həyatda isə şahbuzkəndlilər rahat və firavan yaşayırlar.*

**Mətanət MƏMMƏDOVA**

---

İstehsal müəssisələri

## Yerli tikinti materiallarına tələbat artır





Bu gün Naxçıvanda dövlətimiz tərəfindən aparılan genişmiqyaslı tikinti-quruculuq işləri, eləcə də sakinlərin öz vəsaiti hesabına yaşayış evləri inşa etməsi tikinti materiallarına tələbatı xeyli artırıb. Əvvəllər bu materiallara olan tələbat idxal yolu ilə ödənilirdisə, son illərdə yeni istehsal müəssisələrinin həyata vəsiqə alması ilə bu problem keçmişdə qalıb. Bu gün yerli müəssisələr daxili tələbatı ödəməklə yanaşı, ixracyönümlü məhsulların istehsalına üstünlük verirlər. Son illər istehsalda diqqətçəkici yeniliklər edən, istehlakçılarına geniş seçim imkanı yaradan “Cahan Holdinq” Şirkətlər İttifaqı ötən günlərdə daha bir uğura imza atdı. Şirkət “Cahan Sənaye Kompleksi”ndə yeni plastik boru, profil və aksesuarların istehsalı müəssisəsini işə salmaqla iqtisadiyyatın şaxələnməsinə daha bir töhfə verdi.

Ötən günlərdə yolumuzu adıçəkilən müəssisədən saldıq, yaradılan şərait və istehsal prosesi ilə tanış olduq. Müəssisənin icraçı direktoru Anar Abdullayev muxtar respublika rəhbərinin istehsal obyektinin açılış mərasimindəki tövsiyələrini xatırladaraq dedi ki, bu gün işçilər məhz bu məqsədə nail olmaq üçün səylə çalışırlar. Bu səbəbdəndir ki, daxili bazarda satılan yerli məhsulların keyfiyyəti və rəqabətqabiliyyəti olması üçün səy göstəririk. Müəssisədə bu amilə ciddi diqqət yetirilir.

Müsahibim bildirdi ki, müəssisənin yaradılmasında dövlət maliyyə dəstəyinin böyük rolu olub. İstehsal obyektinin qurulmasına 27 milyon manat vəsait sərf edilib. Bunun 5 milyon manatı Sahibkarlığa Kömək Fondundan alınıb. Müəssisədə 4 istehsal bölməsi, idarəetmə və iş otaqları, laboratoriya, hazır məhsul və xammal anbarları vardır. İstehsal sahəsində Türkiyə, Tayvan və Çindən gətirilən tam avtomatlaşdırılmış avadanlıqlar quraşdırılıb. Xammal Çin, Koreya, Braziliya, Türkiyə, İran və digər ölkələrdən alınır. Kompüterli idarəetmə mərkəzi ilə təmin olunmuş texnoloji avadanlıqlarda verilən sifarişə uyğun işlər avtomatik şəkildə yerinə yetirilir. İstehsal mərhələlərlə həyata keçirilir. İlk olaraq mərkəzi idarəetmə sistemi sayəsində əvvəlcədən təyin edilən çəkilərdə xammal alınır, xüsusi avadanlıqda qarışdırılaraq bunkerlərə hazır xammal şəklində daxil edilir. Daha sonra eyni avtomatik sistemə görə xammal profil və boru istehsal xətlərinə ötürülür. Dəzgahların bunkerlərinə daxil olduqdan sonra əridilərək soyutma hovuzlarına göndərilir. Burada bərkiyəndən sonra təyinedilmiş ölçülərə uyğun kəsilərək hazır məhsul halına gətirilir. İstehsal gücü ayda 1500 ton olan müəssisədə müxtəlif qapı-pəncərə profilləri, polipropilen əsaslı kompozit və sadə içməli su boruları, eləcə də polietilen əsaslı sərt sulama boruları, PVC əsaslı lambir, saydinq və aksesuarlar, PVC əsaslı yumşaq rezin suvarma şlanqları, kanalizasiya boruları, plastik birləşdirici hissələr istehsal olunur. Ümumilikdə, 7 növdə və 160 çeşiddə keyfiyyətli məhsul bazara çıxarılır. Müəssisədə istehsal edilən məhsulların üstün cəhətlərindən biri də onlara beynəlxalq keyfiyyət sertifikatının verilməsidir.

Öyrəndik ki, müəssisədə yaradılan laboratoriyada müasir avadanlıqlar quraşdırılıb. Bunun sayəsində istər xammal, istərsə də hazır məhsulların keyfiyyət göstəricilərinə nəzarət təmin olunur. Belə ki, həmin avadanlıqlar məhsulların təzyiqə, istiliyə və zərbəyə davamlılığına, o cümlədən xammalın tərkibinin yoxlanmasına imkan verir.

Müəssisə təkcə muxtar respublikamızda deyil, ölkəmizin digər bölgələrində də keyfiyyətli məhsullar satışa çıxarır. Belə ki, mövcud tələbat nəzərə alınaraq, Bakı, Gəncə, Sumqayıt, Xaçmaz və Masallıda müəssisənin satış mərkəzləri yaradılıb. Gələcəkdə məhsulların Türkiyəyə, Gürcüstana və digər xarici ölkələrə ixrac olunması nəzərdə tutulur.

Müəssisədə üçnövbəli iş rejimi tətbiq edilib, təhlükəsizlik tədbirlərinə diqqət artırılıb, bununla bağlı işçilərə işə başlamazdan öncə müəyyən təlimatlar verilir. Ümumilikdə, müəssisədə 285 nəfər işlə təmin edilib, onlar üçün xidməti otaqlar yaradılıb. İşçilər rejimə uyğun yemək, xüsusi geyim forması və nəqliyyatla təmin olunublar. Müəssisə işçilərin bilik və təcrübələrini artırmaq məqsədilə də tədbirlər görür. Onlar Naxçıvan Regional Peşə Tədris Mərkəzində və Naxçıvan Biznes Mərkəzində təşkil olunan kurslara cəlb edilirlər.

İşçilərdən Zümrüd Məmmədova, Vüqar İsmayılov, Aynur Piriyeva və Şahin Qafarov bizimlə söhbətində dedilər ki, son illər muxtar respublikada çox sayda istehsal və emal müəssisələrinin yaradılması onlar üçün iş seçimi imkanını genişləndirib. İndi bu müəssisədə çalışaraq müqabilində yaxşı məvacib alır, ailələrinin maddi vəziyyətini yaxşılaşdırırlar. Təbii ki, yaxşı işin, gün-güzəranın olması hər kəsin ürəyincədir. Çalışırlar ki, göstərilən qayğıya əməli işləri ilə cavab versinlər. Bunun üçün də işə məsuliyyətlə yanaşır, əhaliyə keyfiyyətli məhsullar təqdim etməyə səy göstərirlər.

Bəli, bu gün muxtar respublikada sahibkarlığın inkişaf etdirilməsi, dövlət tərəfindən iş adamlarına lazımi dəstəyin göstərilməsi iqtisadiyyatımızın dinamik inkişafını təmin etməklə əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına, mövcud sosial şəraitin daha da yüksəlməsinə xidmət edir. Yeni müəssisənin istifadəyə verilməsi muxtar respublikanın iqtisadi inkişafının göstəricisidir. İllər öncə tikinti materiallarının əksəriyyətinin xaricdən idxal olunduğunu göz önünə gətirsək, bu inkişafın nə qədər böyük miqyas aldığını görərik.

**Nail ƏSGƏROV**







*Dünyanın əksər ölkələrində 1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günü kimi qeyd olunur.*

*1 iyun Uşaqları Beynəlxalq Müdafiə Günüdür*

# Uşaqlar xalqımızın gələcəyidir

Ölkəmizdə uşaqlara diqqət və qayğının dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilməsi ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz ölkəmizə rəhbərliyinin bütün dövrlərində uşaqların təhsilinə, dünyagörüşlərinin zənginləşdirilməsinə və sağlamlıqlarının qorunmasına xüsusi diqqət yetirmişdir. ***"Uşaqlar bizim sevincimizdir, həyatımızın mənasıdır, uşaqlar bizim gələcəyimizdir"***, – deyən ulu öndərimizin rəhbərliyi ilə uşaq hüquqları sahəsində qanunvericilik bazası yaradılmış, uşaqların hərtərəfli inkişafı təmin edilmişdir. Ölkəmiz Birləşmiş Millətlər Təşkilatının "Uşaq hüquqları haqqında" Konvensiyasına qoşulmuş, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanunlar qəbul edilmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu dövlət uşaq siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. ***"Uşaqlar cəmiyyətimizin sabahıdır. Onların qayğısız böyüməsi, yüksək standartlara cavab verən təlim-tərbiyə və tibbi xidmətlərlə təmin edilməsi, əlverişli sosial mühitdə fiziki və mənəvi baxımdan sağlam yetişməsi, habelə öz istedadlarını nümayiş etdirmələri üçün zəruri şəraitin yaradılması bizim əsas məqsədlərimizdəndir. Uşaqlarımızın hərtərəfli şəxsiyyət və ölkəmizin layiqli vətəndaşı olaraq formalaşmaları müstəqil Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin aparıcı istiqamətini təşkil edir"***, – deyən ölkə Prezidentinin qayğısı ilə yeni məktəblərin, uşaq evləri və bağçalarının inşası, onların müasir tələblərə uyğun şəkildə qurulması, qəbul edilən dövlət proqramlarının uğurlu icrası sağlam yeni nəslin formalaşmasını təmin etmişdir.

Muxtar respublikada da dövlət uşaq siyasəti uğurla həyata keçirilir. Bu gün muxtar respublika əhalisinin 35,7 faizi və ya 162 min 113 nəfəri uşaqlardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"O cəmiyyət möhkəmdir ki, o dövlət inkişaf edərək irəli gedir ki, o xalq xoşbəxt gələcəyə malikdir ki, orada uşaqlara qayğı var".*** Muxtar respublikada uşaqların intellektual, fiziki və psixoloji inkişafının, onların şəxsiyyətinin hərtərəfli formalaşması, uşaqların yaradıcılıq mühitində böyüməsi və idmanla məşğul olması üçün zəruri şəraitin yaradılması diqqətdə saxlanılır. Muxtar respublikada 215 ümumtəhsil məktəbi, 26 uşaq musiqi məktəbi, 21 məktəbəqədər, 36 məktəbdənkənar təhsil müəssisəsi, 18 orta ixtisas və peşə məktəbi fəaliyyət göstərir ki, onların da əksəriyyəti müasir şəraiti olan binalarla təmin edilmişdir. Ümumtəhsil məktəblərində 600-dən çox elektron lövhə quraşdırılmış, 87 faizi internetə qoşulmaqla, hər 11 şagird 1 kompüterlə təmin olunmuşdur. Bu gün uşaqların peşə təhsilinə cəlbi də qarşıda duran əsas vəzifələrdəndir. 2017-2018-ci tədris ilində 3500-dən çox uşaq maraqlarına uyğun peşə və ixtisaslara yönləndirilmişdir.

Muxtar respublikada uşaqların sağlamlıqlarının qorunması, fiziki inkişaflarının təmin olunması istiqamətində də mühüm tədbirlər görülür. Uşaqların idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması diqqət mərkəzində saxlanılır, bu işlərin davamlı olaraq həyata keçirilməsi onların bədən tərbiyəsi və idmana marağını artırır. Son illər muxtar respublikada müasir standartlara uyğun olimpiya-idman kompleksləri, üzgüçülük və şahmat mərkəzləri, uşaq-gənclər şahmat məktəbləri, uşaq-gənclər idman məktəbləri, stadionlar, peyntbol meydançası, ümumtəhsil məktəblərində müasir idman zalları tikilib istifadəyə verilmişdir. Yaradılan şəraitin bəhrəsidir ki, hazırda muxtar respublikada 30 minə yaxın uşaq və gənc idmanla məşğul olur, onlar idmanın müxtəlif sahələri üzrə ölkədaxili və beynəlxalq yarışların mükafatçısı və qalibi adını qazanırlar.

Uşaqların istedadlarının üzə çıxarılması, asudə vaxtlarının və tərbiyələrinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə də mühüm tədbirlər həyata keçirilir. Muxtar respublikada fəaliyyət göstərən M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası, Uşaq Kitabxanası kimi mədəniyyət ocaqları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, şahmat məktəbləri və onlarla digər məktəbdənkənar tərbiyə müəssisələri bu baxımdan mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına uyğun olaraq "Gənc istedadların "Qızıl kitabı"nın təsis edilməsi, 8 istedadlı uşağın adının bu kitaba yazılması və onlara xüsusi aylıq təqaüdlərin verilməsi istedadlı uşaqlara göstərilən qayğının daha bir ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı da gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edir.

Ali Məclis Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası" təsdiq edilmiş, uşaq hüquqlarının müdafiəsi üçün dövlət qurumları arasında koordinasiya və nəzarət sistemi təkmilləşdirilmiş, monitorinq qrupu yaradılmışdır. Uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquq və mənafelərinin qorunması, uşaq hüquqlarının təmin edilməsi üçün əlverişli mühitin yaradılması və uşaq hüquqlarının pozulması hallarının qarşısını almaq məqsədilə cari ilin ötən dövründə 8 uşaq müəssisəsində monitorinqlər aparılmışdır. Bundan əlavə, uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı təşkil olunmuş, 13 mindən artıq uşaq haqqında fərdi məlumatlar banka daxil edilmişdir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların bir qrupu da valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, eləcə də aztəminatlı ailələrin uşaqlarıdır. Muxtar respublikada ailələrdə himayə və qəyyumluqda yaşayan uşaqlara, həmçinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, qaçqın və məcburi köçkün, sağlamlıq imkanı məhdud, şəhid və aztəminatlı ailələrdən olan 499 uşağa bayram günlərində və tədbirlərdə hədiyyə və sovqatlar verilmiş, xüsusi qayğıya ehtiyacı olan 414 uşaq məktəbli paltarı, dərs ləvazimatları və qış geyimi ilə təmin olunmuşdur.

Sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, cəmiyyətə inteqrasiyası istiqamətində də muxtar respublikada kompleks tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası da nəzarətdə saxlanılmış, cari ilin ötən dövrü ərzində sağlamlıq imkanları məhdud 310 uşağın valideynləri ilə əlaqə saxlanılaraq maarifləndirici söhbətlər aparılmış, bu uşaqlardan 17-si məktəb, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinə cəlb olunmuşdur. 2017-2018-ci tədris ilində ümumtəhsil məktəblərində müvafiq kateqoriyadan olan 913, Gözdən Əlil Uşaqlar üçün Xüsusi İbtidai Məktəbdə 7, Distant Tədris Mərkəzində 22 uşaq təhsil alır. Həmçinin Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində 10 uşağa valideynlərinə dəstək məqsədilə qulluq edilir. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən muxtar respublikamızda qeydiyyatda olan sağlamlıq imkanları məhdud uşaqların xəstəlikləri üzrə təhlillər aparılır, muxtar respublikanın rayon və kənd mərkəzlərində belə xəstəliklərin qarşısının alınması ilə əlaqədar qadınlar arasında maarifləndirici tədbirlər həyata keçirilir.





Sağlamlıq imkanları məhdud uşaqlar arasında müxtəlif yarış və müsabiqələrin keçirilməsi onların asudə vaxtlarının səmərəli təşkili ilə yanaşı, istedadlarının üzə çıxarılması, əqli və fiziki inkişafı baxımından da mühüm əhəmiyyət kəsb edir. Həmin kateqoriyadan olan uşaqların tarixi abidələrə və muzeylərə ekskursiyaları təşkil edilir, onlar üçün film, konsert proqramı və tamaşalar nümayiş olunur, yaradıcı uşaqların üzə çıxarılması məqsədilə müsabiqələr keçirilir. Eyni zamanda müvafiq kateqoriyadan olan uşaqların iştirakı ilə solo konsert və tamaşalar hazırlanır, rəsm və əl işlərindən ibarət sərgi və sərgi-satışlar təşkil edilir. Bu sahədə görülən işlərin davamı olaraq 2017-ci ildə uşaqların, eləcə də xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtlarının səmərəli təşkili məqsədilə aid dövlət orqanları tərəfindən 836 uşağın Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil olunmuşdur.

Uşaqların vətənpərvərlik ruhunda böyümələrində, milli dəyərlərimizi mənimsəmələrində və dünyagörüşlərinin formalaşmasında uşaq ədəbiyyatını mütaliə etmək mühüm əhəmiyyət kəsb edir. Buna görə də muxtar respublikada müasir ədəbiyyat bazasına malik olan elektron kitabxanalar istifadəyə verilir, uşaqlar üçün kitablar nəşr olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin himayəsi ilə "Uşaqlar və Günəş" almanaxı, "Gəncliyimiz – Gələcəyimiz", "Təmsillər", "Şeir və hekayələr", "Şeirlər", "Poema və pyeslər", "Naxçıvan bəstəkarlarının uşaq mahnıları" adlı uşaq kitablarının nəşr olunması bu sahəyə ayrılan diqqətin bariz nümunəsidir.

*Uşaqlar bizim gələcəyimizdir. Ölkəmizin gələcəyi onların əlindədir. Ona görə də uşaqlara qayğı hər kəsin borcudur.*

**Zərnigar ORUCƏLİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı üzrə baş məsləhətçisi***

## Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbirlər keçirilib

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzində tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov, əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, səhiyyə nazirinin müavini Samrat Gəncəyeva və mərkəzin baş həkimi Rəsmiyyə Xasıyeva çıxış edərək uşaqları bayram münasibətilə təbrik edib, onlara göstərilən dövlət qayğısından danışıblar.

Sonra 18 nəfər sağlamlıq imkanları məhdud uşağa hədiyyələr verilib. Tədbirin bədii hissəsində M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının aktyorlarının ifasında səhnəciklər nümayiş etdirilib.

Analoji tədbir Ordubad Rayon Mədəniyyət Evində və M.Füzuli adına Ordubad şəhər tam orta İnternat Məktəbində də keçirilib.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Asfalt üzərində rəsm müsabiqəsi



1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin qarşısında asfalt üzərində rəsm müsabiqəsi keçirilib. Müsabiqədə sağlamlıq imkanları məhdud 10 uşaq iştirak edib. İştirakçılar təbaşirlə rəsmlər çəkməklə öz bacarıq və qabiliyyətlərini nümayiş etdiriblər. Çəkdikləri rəsmlərə görə Fəridə Babayeva birinci, Fərid Qafarlı ikinci, Mais Hacılı isə üçüncü yerə layiq görülüblər. Müsabiqənin qaliblərinə mükafatlar, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim olunub.

Qeyd edək ki, həftə ərzində, həmçinin Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində "Oxu, qavra" adlı mütaliə yarışı da keçirilib. Bu müsabiqədə iştirakçılar 30 dəqiqə ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamına uyğun olaraq elektron kitabxananın kataloquna daxil edilən Cəlil Məmmədquluzadənin "Hekayələr" adlı kitabından seçilmiş "Saqqallı uşaq" hekayəsini oxumaqla onun məzmununa aid tərtib olunan test suallarını cavablandırıblar. Ən çox sualı düzgün cavablandıran iştirakçı yarışın qalibi olub. Qalibə və digər yarış iştirakçılarına oxunması zəruri olan kitablar hədiyyə edilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

Milli dəyərlərimiz

## Xalq uşaq oyunları keçmişimizdən qalan mənəvi mirasdır

***Bahara gözəllik verən onun təravəti, gül-çiçəklərinin ətridirsə, insan ömrünü mənalandıran da uşaqlıq çağlarıdır. Uşaqlıq illəri elə bir yaş dövrüdür ki, hələ bərkə-boşa düşmədiyin üçün həyatı dərindən dərk etmir, ətrafda baş verənlərə seyrçi qalırsan. Ağ vərəqtək saf olan uşaq yaddaşında məsum duyğular, düşüncələr yaranır, gözlərində yaşadığımız dünyanın sevinci əks olunur. Məhz elə buna görədir ki, hər kəs yaşlandıqca, həyatın çətinlikləri ilə üzləşdikcə, uşaqlıq çağlarını arzulayır, yenidən o illərə qayıtmaq istəyir. Uşaqlıq dövrünün, necə deyərlər, olmazsa-olmazlarından biri də o yaş üçün xarakterik olan oyunlardır...***








– Ay bala, gəl evə, bu qovalaqaç oyununu az oyna, axırda tərləyib xəstələnəcəksən.

– Ana, bir az da oynayım, gələcəyəm.

– Günorta olub, heç olmasa, gəl bir dürmək tutum ye, oyun qaçmır ki, sonra oynayarsan.

– Yox, ana, ac deyiləm, qonşumuz Mahirə xala sağ olsun, hərəmizə bir kətə verdi yedik!

Əziz oxucular, ana ilə bala arasında keçən bu qısa dialoq, yəqin ki, sizləri uşaqlıq çağlarına qaytardı, o illərdə yaşananlar yada düşdü. Mən də bu yazını hazırlayarkən illər öncə məhəlləmizdəki uşaqlarla keçirdiyim o günləri xatırladım. O zamanlar hər gün həmyaşıdlarımla təbiət qoynunda müxtəlif oyunlar oynayar, uşaqlıq illərimizi şən, deyə-gülə keçirərdik. Bəzən oyunlar zamanı yıxılar, ayaqlarımıza, əllərimizə izlər düşərdi. Ancaq bu, bizi qorxutmaz, əksinə, nənələrimizin: – ay bala, narahat olma, uşaq yıxıla-yıxıla böyüyər, – deməsindən həvəslənərdik. Artıq o illərin üzərindən çox sular axıb. Vaxtaşırı kəndimizə yolum düşəndə o günlərin xoş xatirələri yenidən yaddaşımda canlanır. Ancaq təəssüfedici hal odur ki, əvvəllər tozlu-torpaqlı küçələrdə oynayan uşaqların şaqraq gülüşlərinin yerini indi səssizlik tutub. Nə küçədə oynayan uşaq görmək olur, nə də uşaqları evə, dərs oxumağa çağıran valideynləri. Bu bir tərəfdən yaxşı hal olsa da, digər tərəfdən balacaların fiziki inkişafına mənfi təsir göstərir.

İndi bir çox valideyn düşünür ki, övladım yanımda olsun, uzağa getməsin, yoxsa özünə xətər yetirər. Gəlin razılaşaq ki, bunu edənlər, birinci növbədə, öz rahatlıqlarını düşünürlər, uşaqların maraqları onlar üçün çox da önəmli olmur. Bir az dərindən düşünsələr, görərlər ki, əslində, “çilingağac”, “yeddidaş”, “qəcəmədaş”, “ortadaqaldı”, “qovalaqaç”, “gizlənqaç”, “bənövşə bəndə düşə”,“gözbağlıca”, “əl üstə kimin əli” və digər uşaq oyunları balacalara ziyan yetirmə məqsədi daşımır, əksinə, hər biri ayrı-ayrılıqda müəyyən məntiqə, bilik və bacarıqlara əsaslanır. Elə buna görə də uşaqları bu oyunlardan uzaq tutmaqla onları passiv olmağa sövq etmək, ətraf aləmdən təcridə sürükləmək deməkdir.

Uşaq oyunlarının faydaları haqda Naxçıvan Müəllimlər İnstitutunun müəllimi, psixoloq Çapay Quliyev deyir:

– Oyun oynamaq bütün yaş dövrləri üçün xarakterikdir. Uşaq yaşlarında, xüsusən formalaşma mərhələsində oynanılan oyunların əhəmiyyəti isə böyükdür. Həmin oyunlar uşaqları bir-biri ilə ünsiyyət qurmağa, onlarda böyüklərə qarşı doğru davranış qaydaları aşılamağa xidmət edir. Oyunun fiziki, zehni və emosional tərəfdən müsbət təsirləri vardır. Uşaq oyun zamanı qaydalara əməl etməyi, problemlərin həlli yollarını, diqqətini cəmləməyi, razılığa gəlməyi, özünü ifadə etməyi və qərar verməyi öyrənir. Misal üçün hamımızın uşaq olarkən sevə-sevə oynadığımız “çilingağac” oyununa diqqət yetirsək, görərik ki, bu oyun uşaqda cəldlik, çeviklik, komandada oynamaq bacarığı kimi vərdişlər formalaşdırır.

Çapay Quliyevin dediyinə görə, bu gün texnologiyalar həyatımızın bütün sahələrində müsbət dəyişikliklər yaratsa da, onların mənfi cəhətləri də az deyil. Bu mənfi cəhət uşaqlara da təsirsiz ötüşmür. Texnika uşaqları böyüklərə nisbətən daha çox cəlb edir və bəzən uşaqlar saatlarla kompüter və telefondakı maraqlı oyunlardan, əyləncəli proqramlardan ayrıla bilmirlər. Qohum-əqrəbanın, dost-tanışın evində qonaq olarkən bu halların çox şahidi oluruq. Bu isə valideynlərin üzərinə böyük məsuliyyət qoyur. Çox vaxt valideynlər rahat olsunlar deyə, uşaqların kompüter arxasında uzun müddət oturmalarına, telefonla oyunlar oynamalarına şərait yaradırlar. Bilməlidirlər ki, balacaları bu texnologiyalara erkən yaşlardan meyilləndirməklə onların gələcəklərini təhlükəyə atırlar. Məhz elə bunun nəticəsidir ki, bu gün məktəbyaşlı uşaqların bəzilərində diqqətsizlik problemi yaranır, görmə zəifliyi ortaya çıxır. Digər tərəfdən, texnologiyalar uşaqları fiziki fəaliyyətdən, yaradıcılıqdan da məhrum edir, onların təxəyyülünü, düşüncəsini və analiz qabiliyyətlərini zəiflədir.

Naxçıvan şəhər 1 nömrəli uşaq bağçasının tərbiyəçisi Təranə Seyidova deyir ki, məktəbəqədər tərbiyə müəssisəsində məşğələlər zamanı uşaqlara hərəkətli və az hərəkətli növlərdə olmaqla müxtəlif oyunlar öyrədilir. Bu məqsədlə bağçada oyun zalları yaradılıb, tədris avadanlıqları quraşdırılıb, məşğələnin düzgün təşkili üçün metodik vəsaitlər verilib. Proqrama əsasən hər qrup həftədə iki saat oyun məşğələsinə qatılır. “Dovşan və qurd”, “qazlar, qazlar”, “bənövşə bəndə düşə”, “qatar”, “qarğı və qırğı” uşaqların daha çox marağına səbəb olan və həvəslə oynadıqları oyunlardır. Bundan başqa, məktəbəqədər tərbiyə müəssisəsində təşkil olunan musiqi məşğələlərində ritmik oyunlara da geniş yer verilir. Ümumiyyətlə, öyrədilən bütün uşaq oyunları balacaları bacarıqlı, cəld, əzmkar olmağa səsləyir, mübarizlik, qətiyyətlilik göstərməyə sövq edir. Məşğələlər uşaqların düşüncələrini inkişaf etdirir və onlar böyüdükcə daha çox uğurlar qazanırlar. Bu, onlara təkcə məktəbdə deyil, gələcək iş həyatında da müxtəlif yaradıcı tapşırıqların öhdəsindən asanlıqla gəlməyə kömək edir.

Uşaq oyunları keçmişimizdən bu günə miras qalan folklor nümunələri, genetik yaddaşımızın daşıyıcılarıdır. Biz gənclik bu yaddaşın gələcəyə ötürülməsinə çalışmalıyıq. Elə etməliyik ki, bizdən sonra gələnlərin də bizim kimi belə maraqlı uşaqlıq xatirələri çox olsun. Dərslər də lazımdır, hazırlıqlar da, məşğələlər də, müasir texnologiyalardan istifadə də. Ancaq hər bir valideyn bütün bunlardan fürsət tapıb balacaları asudə vaxtlarında bu oyunlara sövq etməyə çalışmalı, bildiklərini onlara öyrətməlidirlər. Minilliklərdir, ana laylası beşiklərin başında necə səslənirsə, bu oyunlar da uşaqlarla yaşadılmalıdır.

✍ **Nail ƏSGƏROV**

***Əsasən, uşaqlar üçün kiçikhəcmli şeirlər qələmə alan Kamil Arazın “Şeirlər”, “Göydən üç alma düşdü”, “Xəzinə” kitabları ilə əvvəlcədən tanış idim. Uşaqların mənəvi dünyasını zənginləşdirən bu kitablarda balaca fidanlara təqdim edilən şeirlər, ilk baxışdan səmimiyyəti ilə diqqəti çəkir. Onları oxuyarkən hiss etmək çətin deyil ki, müəllif sirli-soraqlı uşaq dünyasına yaxından bələddir və bu şeirləri qələmə alarkən də onların daxili dünyasını diqqətdə saxlayır.***

Yeni nəşrlər

## Uşaqlara qiymətli hədiyyə: *“Tapmacalar”*




Bu günlərdə Kamil Araz yeni “Tapmacalar” kitabı ilə öz oxucularının görüşünə gəlib. 212 tapmacadan ibarət olan kitaba filologiya üzrə fəlsəfə doktoru, şair-publisist Elxan Yurdoğlu yazdığı “Müəllifli tapmacalar” adlı ön sözdə çox haqlı bir qənaətə gəlir: “...Yazılan hər hansı bir əsərin mürəkkəbi qurumamış internetdə – sosial şəbəkələrdə özünə yer tapdığı indiki dövrdə daha çox cəmiyyətə, gəncliyə hesablanmış ədəbi janrlar, mövzular “at oynadır”. Belə olan məqamda cəmiyyətin müəyyən bir hissəsini təşkil edən balaca körpələr, uşaqlar diqqətdən kənarda qalır...

Nə yaxşı ki təkcə dilçiliyin, folklorşünaslığın fədakar tədqiqatçıları deyil, bu sahədə milli vətənpərvərlik duyğuları ilə can yandıran ziyalılarımız, sadə vətəndaşlarımız da var”.

Qeyd edək ki, son illərdə muxtar respublikanın balaca sakinlərinin sağlam ruhda böyüməsi, onların zehni inkişafının düzgün istiqamətləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər hər kəs tərəfindən gələcəyimizə qayğı kimi dəyərləndirilir. Bu baxımdan illər əvvəl muxtar respublikada uşaq ədəbiyyatının aşağı səviyyədə olması ciddi tənqid olunmuşdu. Artıq bu sahədə olan boşluğun aradan qaldırılmasını müşahidə edirik. Bu mənada, Kamil Arazın son illərdə işıq üzü görən kitabları uşaqlarla yanaşı, böyüklərin də sevincinə səbəb olub.

O da qeyd edilməlidir ki, müəllif bu tapmacaları qələmə alarkən təkcə janrın tələblərini nəzərə almayıb, həm də uşaqların düşüncəsini, necə deyərlər, hərəkət etdirməyə səy göstərib və buna nail olub. Müxtəlif mövzularda işlənmiş tapmacalarda diqqəti çəkən bir məqam da onların lakonikliyidir. Müəllif yoruculuğa yol vermədən uşaqların tapmacaların cavablarını tezliklə tapması üçün dilimizin zəngin söz ehtiyatından bacarıqla istifadə edib ki, bu da tapmacaların bədii dəyərini artıran səbəblərdən biridir. Tapmacaları oxuyarkən hiss etmək çətin deyil ki, müəllif balacaların dünyagörüşlərini nəzərə alıb.

Tapmacalarda o da hiss olunur ki, müəllif klassik ədəbiyyatımızda qələmə alınmış əsərlərlə yaxından tanışdır. Həmin bədii nümunələrin əbədiyaşarlılığı da uşaq dünyasına yaxın olan ifadə tərzi və səmimiyyətdir.

Kamil Arazın yenicə çapdan çıxmış “Tapmacalar” kitabı uşaq bağçalarında, orta məktəblərdə çalışan müəllimlər üçün köməkçi vəsait olmaqla yanaşı, uşaqlarımızın mütaliə mədəniyyətinin yüksəldilməsində də böyük əhəmiyyətə malikdir. “Tapmacalar”ı Uşaqları Beynəlxalq Müdafiə Günündə onlara qiymətli hədiyyə kimi də dəyərləndirmək olar.

✍ **Muxtar MƏMMƏDOV**

## Yaşıllıqlara qulluq və təmizlik aksiyası keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə “Gənclər ətraf mühitin çirklənməsinə yox deyir” devizi altında hazırlanmış qrafikə əsasən Babək və Şahbuz rayon gənclərinin iştirakı ilə Batabatda yaşıllıqlara qulluq və təmizlik aksiyası keçirilib.

Aksiya iştirakçıları Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində yerləşən İnformasiya Mərkəzinin flora, fauna və etnoqrafiya muzeyləri ilə də tanış olublar.

Aksiya Gənclər və İdman, Ekologiya və Təbii Sərvətlər, Təhsil nazirlikləri, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən keçirilib. Aksiyada 30 nəfər gənc iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Peyntbol üzrə muxtar respublika turniri olub

***Naxçıvan Muxtar Respublikası Atıcılıq Mərkəzində peyntbol üzrə ali və orta ixtisas müəssisələrinin tələbələri arasında muxtar respublika turniri keçirilib.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Atıcılıq Federasiyasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş “Heydər Əliyev kuboku” uğrunda keçirilən turnirdə hər birinin tərkibində 6 idmançı olmaqla, 7 komanda mübarizə aparıb.

Olimpiya sistemi üzrə təşkil edilən turnirin final görüşündə Naxçıvan Dövlət Universiteti və Naxçıvan Tibb Kollecinin komandaları üz-üzə gəliblər. Atıcılıqda daha sərrast olduqlarını nümayiş etdirən Naxçıvan Dövlət Universitetinin tələbələri turnirin qalibi adını qazanıblar. Heydər Əliyev adına Hərbi Liseyin komandası isə üçüncü olub.

Sonda qalib komanda “Heydər Əliyev kuboku”na layiq görülüb. Digər iki pillənin sahibləri isə diplom, medal və hədiyyələrlə mükafatlandırılıblar.

✍ **Ceyhun MƏMMƏDOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Alimentin tutulma qaydası qanunvericiliklə necə tənzimlənir?***

***Cavab:*** Qanunvericiliyə və milli dəyərlərimizə əsasən valideynlər uşaqlarını saxlamağa borcludurlar. Bu könüllülük qaydasında aparılır. Şəxs alimenti könüllü ödəmək istəyirsə, bu zaman valideynlər Ailə Məcəlləsinin 75-ci maddəsinə uyğun olaraq onun ödənilməsi barədə saziş imzalaya və həmin sazişdə ödəniləcək alimentin məbləğini müəyyən edə bilərlər. Bu zaman yetkinlik yaşına çatmayanlar üçün ödənilən alimentin miqdarı məhkəmə qaydasında onlar üçün müəyyən edilə bilən alimentin miqdarından az olmamalıdır. Alimentin ödənilməsi barədə saziş yazılı formada bağlanır və notarial qaydada təsdiq olunur. Əgər aliment məhkəmə qaydasında tutulursa, o zaman Ailə Məcəlləsinin 78-ci maddəsi uşaqların saxlanması üçün alimentin sabit pul məbləğində tutulması qaydasını müəyyənləşdirir. Həmin maddəyə əsasən valideynlər arasında yetkinlik yaşına çatmayan uşaqlara aliment ödənilməsi barədə saziş yoxdursa, məhkəmə tərəfindən hər ay ödənilməli olan sabit pul məbləğində və ya eyni zamanda qazancın (gəlirin) müəyyən hissəsi kimi müəyyən edilə bilər. Alimentin ödənilməsi barədə razılıq olmadıqda uşaqlar üçün onların valideynlərindən məhkəmə tərəfindən hər ay aşağıdakı miqdarda aliment tutulur:

*1 uşağa görə – qazancın və valideynlərin başqa gəlirlərinin dörddə bir hissəsi;*

*2 uşağa görə – qazancın (başqa gəlirlərin) üçdə bir hissəsi;*

*3 və daha çox uşağa görə – qazancın (başqa gəlirlərin) yarısı.*

Bu payların miqdarı məhkəmə tərəfindən tərəflərin ailə və maddi vəziyyəti, eləcə də diqqətəlayiq olan başqa hallar nəzərə alınmaqla azaldıla və artırıla bilər.

**İradə QULİYEVA**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş məsləhətçisi***

### İtmişdir

Naxçıvan şəhəri, Təbriz küçəsi, bina 1, mənzil 76-da qeydiyyatda olan Kəlbəlixanova Həcər Vəli qızının adına olan 8004 inventar nömrəli texniki pasport və 30 iyun 2006-cı il tarixdə verilmiş 347 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Qasımova Məlahət Qasım qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 401